AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 09.04.2018 |
| Qeydiyyat nömrəsi | 100/02/001 |
| Adı | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/001 nömrəli qərarı ilə təsdiq edilmiş “Şəxsi yoxlama aparılması haqqında” Protokolun forması”nda dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 21.04.2018 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 360.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201804092001 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 20.04.2018 |

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Kollegiyası “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 962-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 yanvar tarixli 3569 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/001 nömrəli qərarı ilə təsdiq edilmiş “Şəxsi yoxlama aparılması haqqında” Protokolun forması”nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquqi təminat şöbəsi (Sənan Muxtarov) bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil

edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Qərar aidiyyəti üzrə göndərilsin.

**Kollegiyanın sədri** **Aydın Əliyev**

**Dövlət Gömrük Komitəsi Kollegiyasının 100/02/001 nömrəli, 9 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/001 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəxsi yoxlama aparılması haqqında" Protokolun forması"nda edilmiş dəyişikliklər:**

**1.** Mətn üzrə işlədilən "Hal şahidləri" sözlərindən sonra "(yalnız hal şahidlərinin iştirak etdiyi halda)" sözləri əlavə edilsin.

**2.** "Qeyd" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** birinci cümlədən ", iki həmcins hal-şahidinin iştirakı ilə eyni cinsdən olan gömrük əməkdaşı tərəfindən" sözləri çıxarılsın.

**2.2.** ikinci - altıncı cümlələr müvafiq olaraq beşinci - doqquzuncu cümlələr hesab edilsin və aşağıdakı məzmunda ikinci - dördüncü cümlələr əlavə edilsin;

"Şəxsi yoxlama həyata keçirilərkən, həmçinin mallar və ya sənədlər götürülərkən videoçəkilişdən istifadə edilmədikdə, işin nəticəsində maraqlı olmayan və yetkinlik yaşına çatmış azı 2 (iki) hal şahidinin iştirakı məcburidir. Şəxsi yoxlama və götürmə zamanı şəxsin soyundurulması zərurəti yarandığı halda videoçəkilişdən istifadəyə yol verilmir. Bu halda şəxsi yoxlama və götürmə barəsində müvafiq hərəkət aparılan şəxslə eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır.".